

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti** *1933-cü ildən nəşr olunur*

№ 48-49
(7285-7286) **Bazar ertəsi, 13 iyul 2015-ci il** **Qəzet ayda 4 dəfə çıxır** **Qiyməti 40 qəpik**


# İlham Əliyev İtaliyada işgüzar səfərdə olubdur

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Milan Expo-2015" Beynəlxalq sərgisində Azərbaycan pavilyonunun açılışında iştirak etmək üçün iyulun 8-də İtaliya Respublikasına işgüzar səfərdə olublar.



Milanın Malpensa Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İyulun 9-da "Milan Expo- 2015" Ümumdünya sərgisindəki Azərbaycan pavilyonunda "Milli gün" təşkil olunub.

"Milli gün" çərçivəsində Azərbaycan pavilyonunun



rəsmi təqdimat mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Tədbirə, həmçinin İtaliya hökumətinin nümayəndələri, ictimai xadimlər, bu ölkədəki diplomatik korpusun təmsilçiləri və digər nüfuzlu qonaqlar da qatılıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva "Milan Expo-2015" sərgisi ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

"Milan Expo-2015" Təşkilat Komitəsinin rəyinə görə, Azərbaycan hazırlıq və quraşdırma prosesində ilkin mərhələdə iştirakçı dövlətlər qarşısında qoyulan tələbləri, pavilyonun məzmun və tərtibatı ilə bağlı təqdimatları ən tez yerinə yetirən ölkələr sırasındadır. Eyni zamanda, xarici mətbuat və İtaliyanın aparıcı KİV-ləri milli pavilyonumuzun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu bildiriblər. Müxtəlif ölkələrin rəsmi nümayəndə heyətləri və sərginin rəhbərliyi Azərbaycan pavilyonunun dizaynına görə digərlərindən çox fərqləndiyini, seçilmiş mövzuya tam uyğun olduğunu qeyd ediblər. Ölkəmizin bu uğurları səbəbindən Ermənistan "Milan Expo 2015"də iştirakdan imtina edib.

Daha sonra Prezident İlham Əliyev "Milan Expo 2015" beynəlxalq sərgisində dövlət bayraqlarının qaldırılması mərasimində iştirak etdi.

İtaliyanın və Azərbaycanın dövlət himnləri səsləndirildi və dövlət bayraqları qaldırıldı.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləmişdir **(nitq mərkəzi mətbuatın səhifələrində dərc edilmişdir)**.

Həmin gün Azərbaycan Respublikasinin Prezidenti İlham Əliyevin İtaliya Respublikasinin Prezidenti Sergio Mattarella ilə və İtaliya Respublikasının Baş naziri Matteo Renzi ilə geniş tərkibdə görüşləri olmuşdur.